**“Qəbələ” qəzetinin 80 yaşı tamam oldu**

# Qəzetimiz tariximizin salnaməsidir

Qutqaşın dairə fəhlə,kəndli,qızıl əsgər deputatları Soveti icraiyyə komitəsi 1920-ci il aprel ayının 28-dən 1929-cu il aprel ayının 8-nə qədər Nuxa qəzasının Qutqaşın dairəsi adlandırılmışdır.

VI Ümumiazərbaycan Sovetlər qurultayının qərarına əsasən qəza sisteminin ləğv edilib mahal sisteminin təşkil edilməsilə əlaqədar olaraq, Qutqaşın 1929-cu il aprel ayının 8-dən 1930-cu ilin fevral ayına qədər Zaqatala – Nuxa mahalının Qutqaşın dairəsi adlanmışdır.1930-cu ilin əvvəllərində Qutqaşın dairəsi Zaqatala-Nuxa mahalının ərazisindən ayrılaraq,Şirvan mahalının ərazisilə birləşdirilmiş və 1930-cu ilin avqust ayına qədər Şirvan mahalının Qutqaşın dairəsi adlanmışdır.

Azərbaycan SSR Mərkəzi İcraiyyə komitəsinin (MİK-nin) 1930 cu il 1 avqust tarixli 476-477 №li qərarlarına əsasən respublikada mahal sistemi ləğv edilərək rayonların təşkil olunması ilə əlaqədar olaraq Qutqaşın dairəsi rayon adı almışdır.

Rayonun yaradılması ilə əlaqədar olaraq respublikada mövcud olan nazirliklərin şöbələri də təşkil edildi.3 ildən sonra isə,15.10.1933-cu ildə,—Qutqaşında ilk qəzet “Bolşevik mübarizi” adı ilə çıxmağa başladı.(Bu barədə 20 oktyabr 1981-ci il tarixli “Qalibiyyət” qəzetində müharibə və əmək veteranı rəhmətlik İbrahim müəllim Əzməmmədovun “Qazetimizin ilk nömrəsi” adlı məqaləsində geniş məlumat verilmişdir.

Qutqaşın rayonunun həyatına dair materiallar burada qəzet yaradılanadək Nuxada (indiki Şəkidə) çıxan “Şəki fəhləsi” qazetində dərc olunmuşdur.

Sonralar qəzetimiz “Mübariz” , 1962-1965-ci illərdə rayonlar birləşərkən diyarımız haqqında materiallar Nuxada (indiki Şəkidə)çıxan “Lenin bayrağı”, Göyçayda nəşr olunan “Yeni həyat” ,qəzetlərində verilmişdir.

1966-cı ildən rayonumuzda “Qalibiyyət” adı ilə qəzet nəşri bərpa edilir.

1990-cı ilin noyabrın 27-dən qəzetimizin “Qəbələ” adı ilə buraxılır.

Qəzetimizin redaktorları:

1. Nəriman Həsənov—1933—1937.
2. Musa Nəcəfov—1937—1939.
3. Əhmədpaşa Hacıyev—1939—1942.
4. Umud Kərimov—1942—1944.
5. Baba Qəhrəmanov—1944—1946.
6. Canan Şirinov—1946—1948.
7. Ramazan İsmayılov—1948—1949.
8. Baba Qəhrəmanov—1949—1956 (2-ci dəfə).
9. Ramazan İsmayılov—1956—1962 (2-ci dəfə).
10. Kərim Abdullayev—1962—1965.
11. Ramazan İsmaylov—18.05.1966—18.05.1987 (3-cü dəfə).
12. Əziz Əzizov—18.05.1987—07.05.1993.
13. Tacəddin Məmmədov—07.05.1993—08.07.1993.
14. Əziz Əzizov—09.07.1993—05.11.1997 (2-ci dəfə).
15. Nadir Atakişiyev—05.11.1999—12.06.2000.
16. Əziz Əzizov—12.06.2000—02.07.2001 (3-cü dəfə).
17. Nadir Atakişiyev—02.07.2001—18.10.2011 (2-ci dəfə).
18. Oqtay Məmmədov—18.10.2011-dən.

Qəzetimizin nömrələrinin əksəriyyətini muzeyimizdə mühafizə və təbliğ məqsədilə əldə etmişik. Azərbaycanımızın e.ə IV əsrdən b.e V əsrnədək paytaxtı olmuş indiki Qəbələdə nəşr olunan “Qəbələ” qəzeti tariximizin salnaməsidir.Bu qəzet vasitəsilə keçmişimizi öyrənmək üçün muzeyimizə çoxlu müraciətlər olmuşdur.

**Xalis MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət İşçisi, rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru.**



**Qəbələ gəncləri hərbi xidmətə yola düşməyə hazırlaşır.**

*Foto S. Umuyevindir.*

# ”Vətənin müdafiəsinə hazıram“

Qəbələ rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə şəhər 3 saylı tam orta məktəbdə XI sinif şagirdləri arasında payız çağrışına həsr edilmiş “Vətənin müdafiəsinə hazıram” poliatlon çoxnövçülüyü üzrə rayon birinciliyi yarışı keçrmişdir.

Yarışın keçirilməsində məqsəd yeniyetmə və gəncləri vətənin müdafiəsinə mənəvi və fiziki cəhətdən hazırlamaq, gənclərdə vətənə məhəbbət və vətənpərvərlik hissini artırmaq, çağırış və çağırış yaşına qədərki gənclərin hərbi hazırlığının gücləndirilməsi, idmançılarda yarış təcrübəsini və ustalığı artırmaq və rayon çempionunu aşkar etməkdən ibarət idi.

Tədbirin açılış mərasimində Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov çıxış edərək respublikada idmana və idmançılara göstərilən dövlət qayğısından danışmış, yarışın məqsəd və vəzifələri barədə məlumat verərək komandalara uğurlar arzulamışdır.

Beynəlxalq Poliatlon çoxnövçülüyü Assosiasiyasının qaydalarına əsasən 100 metr məsafəyə qaçış, turnikdə dartınma və qumbara atma növləri üzrə keçirilən yarışda rayonun tam orta məktəblərindən 15 komanda iştirak etmişdir. Komandanın tərkibi 5 idmançı və 1 məşqçidən ibarət olmaqla yarışın yekununa əsasən ən çox xal toplamış komanda qalib hesab edilir.

Rayon birinciliyində Zarağan kənd 2 saylı tam orta məktəbin komandası I yeri, Qəbələ şəhər 4 saylı tam orta məktəbin komandası II yeri və Soltannuxa kənd tam orta məktəbin komandası III yeri tutmuşdur. Qalib komandalara rayon Gənclər və İdman idarəsinin diplomları təqdim edilmişdir.

**Elçin OSMANOV,**
**Gənclər və İdman İdarəsinin aparıcı məsləhətçisi.**

## Pəhləvanımız ikinci pillədə

Bu günlərdə Bakı şəhərində idmanın cüdo növü üzrə «Qafqaz» klubunun açıq Respublika birinciliyi keçirilmişdir. Yarışlarda məşqçi Rail İsmayılovun rəhbərliyi ilə Qəbələ rayonunun komandası da iştirak etmişdir. Birincilikdə Qəbələ UGİM-in yetirməsi Elçin Əzimov da öz gücünü sınamışdır. O, 34 kq. çəki dərəcəsində II yerə sahib olmuşdur.

Gənc pəhləvanımızı təbrik edir, ona gələcək yarışlarda uğurlar arzulayırıq.

**Ədalət ƏLİYEV,**
**Qəbələ Uşaq Gənclər İdman məktəbinin direktoru.**




Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi
Q. C. Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydədən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.
Oxucu məktubları geri qaytarılmır.